# XIX əsr maarifçi-demokratların həyat və yaradıcılıqlarında din

**Taleh Əvəz oğlu Hüseynov**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Avrasiya Universiteti*
**E-mail:** Taleh77@gmail.com

**Rəyçilər:** filol.ü.f.d.. dos. A.X. Ramazanova,
filol.ü.f.d.. dos. Ş.Ə. Albalıyev

**Açar sözlər:** maarifçilik, din, fanatizm, peyğəmbər, Şərq, ədəbiyyat
**Ключевые слова:** просвещение, религия, фанатизм, пророк, Восток, литература
**Key words:** enlightenment, religion, fanatism, prophet, East, literature

XIX əsrdə Azərbaycanda dini-mənəvi-ictimai-siyasi-elmi-ədəbi mühit o qədər də sadə deyildi. Rus, Avropa mənəvi mühitinin təsiri artıq cəmiyyətdə özünü birbaşa şəkildə göstərir, hələ əsrin birinci yarısında F.Bodenşted, İ.Qriqoryev, İ.Slivitski, Q.Rozen kimi missionerlər, avropalılar, dekabristlər Azərbaycana gəlir, bunun nəticəsində Mirzə Şəfi Vazeh, gənc Mirzə Fətəli Axundova onun din xadimi olmaq istədiyini bildikdən sonra, ona "səndəmi fırıldaqçı və şarlatan olmaq istəyirsən?" sualını verirdi. Lakin əslində Mirzə Şəfi hələ gənc yaşlarından din xadimi, molla olmaq üçün hazırlaşdırılırdı: "Mirzə Şəfi Sadıq oğlu Vazeh 1794-cü ildə Gəncə şəhərində doğulmuşdur. Onun babası Məhəmməd Şəfi oğlu Gəncə əsilzadələrindən idi. Atası Kərbəlayı Sadıq Məhəmməd oğlu isə Gəncə hakimi Cavad xanın sarayında memar – bənna işləyirdi. Gələcək şairin valideynləri Allaha inanan, mömin adamlar olmuşlar. Atası gənc yaşlarında Kərbəlaya gedib, oranı ziyarət etdikdən sonra ömrünün axırına qədər oruc tutub, namaz qılmağı unutmamışdı...

Kərbəlayi Sadığın iki oğlu var idi... Kiçik oğlu, Məhəmməd Şəfini ruhani etmək məqsədi ilə Gəncədə Şah Abbas məscidinin yanındakı mədrəsəyə qoyur. Ruhani dərslərinin geniş tədrisinə görə baş məscidlərin nəzdində olan məktəblərdən az fərqlənən bu mədrəsədə ilahiyyatdan başqa fars və ərəb dilləri də tədris olunur, gözəl xətlə yazmaq sənəti öyrədilirdi... Mədrəsədə oxuduğu dövrdə ruhanilərlə yaxından tanışlıq, habelə Firdovsi, Xəyyam, Sədi, Nizami, Füzuli kimi klassik sənətkarların yaradıcılığına bələd olması Şəfidə şəriəti qazanc vasitəsinə çevirmiş din xadimlərinə qarşı bir soyuqluq, müdərrislərin söhbətlərinə inamsızlıq yaradır və getdikcə onun ruhani tədrisinə olan həvəsi sönməyə başlayır. Lakin dini təhsili yüksək qiymətləndirən və Şəfini molla görmək istəyən atasının ondan narazı qalıb inciyəcəyindən çəkinən Şəfi hələlik təhsilini tamam buraxmasa da molla – müdərrislərin tapşırıqlarına ciddi əhəmiyyət vermir, vaxtının çoxunu fars dilini, Şərq ədəbiyyatını öyrənməyə, gözəl xətt salmaq məşqlərinə sərf edirdi" (1, 137). Beləliklə, gördüyümüz kimi, Mirzə Şəfi Vazeh hələ gənc yaşlarından din xadimi olmaq üçün yetişdirilsə də, din xadimi olmur, sonralar bu sənətdən tamamilə uzaqlaşır. Lakin bu proses, yəni din xadimi kimi yetişmək, dini təhsil almaq uzun zaman hələ cəmiyyətin əsas prioritet sahələrindən biri olaraq qalır, təhsilin, cəmiyyətin, gənc nəslin həyatında, təlim-tərbiyəsində mühüm rol oynayırdı. Təbii ki, bu proses ədəbiyyata, incəsənətə də təsir edir və poeziya, ədəbiyyat dini mövzulardan yan ötmürdü. Amma bu da vardı ki, hələ XIX əsrin əvvəllərində Mirzə Şəfi Vazeh dini təhsilə, dini dünyagörüşə qarşı çıxsa da, yenidən öz bədii yaradıcılığında dini mövzulara bir o qədər də qayıtmır, öz əslinin digər böyük demokrat-

maarifçi dünyagörüşlü ədibləri, yazıçıları kimi öz yaradıcılığında dini ədəbi və ya elmi materiala çevirmirdi.

Dini mövzu XIX əsr ədəbiyyatından bir qırmızı xətt kimi keçir. Bu mövzuda XIX əsrdə ictimai mənşəyindən, vəzifəsindən, əqidəsindən, dünyagörüşündın, siyasi mövqeyindən, ədəbi fəaliyyətindən, maarifçiliyindən, demokratizmindən, bir sözlə, hansı ədəbi cərəyana aid olmasından asılı olmayaraq demək olar ki, bütün qələm sahibləri öz qələmlərini sınamış, öz yaradıcılıqlarında bu mövzudan söhbət açmışlar. Belə ki, hələ XIX əsrin əvvəllərində böyük maarifçi, demokrat, görkəmli ziyalı, gözəl bədii, dini, elmi, dünyəvi əsərlər müəllifi Abbasqulu ağa Bakıxanov bu mövzuya müraciət etmiş və hətta, məqtəl mövzusundan bəhs edən “Riyazül-qüds” əsərini qələmə almışdır. “Riyazül-qüds”ün tədqiqatçısı akademik Möhsün Nağısoylunun verdiyi məlumata görə bu əsər “şəhidlik mövzusunda qələmə alınmış bir əsərdir, əsasən, İmam Hüseynin (ə.) Kərbəlada şəhidlik zirvəsinə çatmasına həsr olunmuşdur. Bu mövzuda qələmə alınan digər məqtəl kitabları kimi, “Riyazül-qüds” əsərində də əsas mövzu ilə - Kərbəla müsibətilə yanaşı, əsərin baş qəhrəmanı İmam Hüseynin (ə.) ən yaxın adamlarından – babası Məhəmməd Peyğəmbər (s), anası, həzrəti Fatimə (ə.), atası İmam Əli (ə.), qardaşı İmam Həsəndən (ə.) və digər imamlardan da bəhs olunur” (2, *40*). “Riyazül-qüdsün məzmunu və bölmələri ilə bağlı qısa məlumatdan göründüyü kimi, kitabda şəhidlik məsələsinə daha geniş yer verilmişdir və onun mərkəzində Kərbəla faciəsinin bədii şəkildə təsviri dayanır. Əsərin bütün bölmələrində qəmli və hüzürlü hadisələrin faciəvi və müsibətli anların təsvirinə daha geniş yer verilmişdir. Digər məqtəl kitablarında olduğu kimi, “Riyazül-qüds”də də İmam Hüseynin (ə.) tutduğu yol haqq-ədalət uğrunda mübarizə kimi mənalandırılır və onun şəhadəti qəhrəmanın mənəvi qələbəsi kimi dəyərləndirilir” (2, *42*).

Tədqiqatçılara görə Abbasqulu ağa Bakıxanov bu əsəri gənc yaşlarında, 1820-ci ildə, iyirmi altı yaşında ikən qələmə almışdır. Maraqlıdır ki, sonralar car Rus dövlətinin idarəetmə sistemində yüksək vəzifələr tutan, car ordusunun zabiti kimi polkovnik rütbəsinə qədər yüksələn, bütün Rusiyanı, Avropanın yarısını gəzən, Avropa ictimai-siyasi, elmi-fəlsəfi fikrinə dərindən bələd olan, “Qanuni-qüdsi”, “Təhzibi-əxlaq”, “Kəşfül-qəraib”, “Eynəl-mizan”, “Əsrarül-məlaküt”, “Gülüstani-irəm” kimi elmi əsərlər yazan Abbasqulu ağa Bakıxanov heç vaxt öz dini əqidəsinə, dini dünyagörüşünə xəyanət etməmiş, hətta məlum olduğu kimi, Məkkəyə ziyarətə getmək üçün çar hökumətindən icazə almış və 1846-cı ildə Məkkəyə səfər etmişdir. Firidun bəy Köçərli “Azərbaycan ədəbiyyatı” kitabında Abbasqulu ağa Bakıxanovdan danışarkən yazır: “Amma axırda dünya şöhrətini puç, cahü rəyasət tələbini biməzmun görüb, xidmətdən istefa veribdir. İbadətə və axirət sərmayəsini cəm etməyə məşğul olub Həccə - beytullaha əzimət eləmişdir və tarixi-hicrətin 1261-ci salında ol cənab Məkkeyi-mükərrəmə ilə Mədineyi-münəvvərə arasında “Vadiyi-Fatimə” adlı mənzildə vəfat edib, haman yerdə dəfn olunmuşdur. Rəhmətüllahü əleyhi, rəhmətən vasiətən.

Belə rəvayət olunur ki, Abbasqulu ağa Qüdsi Həcc ziyarətinə əzimə etdikdə məşhur Quba qazisi Hacı Molla Abdulla Axundu dəxi özü ilə bərabər aparmışdı. Vəqti ki, Qüdsi öz ziyarətini itmamə yetirir, üzünü dərgəhi-həqqə tutub deyir: “Pərvərdigara! Hər padşahdan mənə nişan verilibdir, səndən də bir nişan təmənna edirəm ki, axır nişanım olsun!”

Hacı Molla Abdulla axund o nişandan murad nə olduğunu soruşur. Hacı Abbasqulu ağa deyir: “O nişan bu müqəddəs məkanda ölməkdir”. Necə ki, mərhumun arzusunca iş vaqe olur” (3,289-290). Bu fakt bir daha onu göstərir ki, XIX əsrdə Azərbaycan cəmiyyəti nə qədər Avropaya üz tutsa da, islam dini hələ də bu xalqın ictimai-siyasi-mənəvi fikrində mühüm rol oynamış, mənəvi həyatından uzaqlaşmamış və dünyəvi mövzularda əsərlər qələmə alan müəlliflər bu mövzularda da böyük həvəslə əsərlər qələmə almışlar.

Təbii ki, XIX əsr ədəbiyyat və ictimai fikir tariximizə bu rakursdan yanaşdıqda XIX əsr Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində məşhur olan daha bir neçə simanın adını çəkə bilərik: Mirzə Kazım bəy (1802-1870), Mirzə Fətəli Axundov (1812-1878), Hacı Seyid Əzim Şirvani (1835-1888) və başqaları...İlk baxışda Mirzə Kazım bəy və Mirzə Fətəli Axundovun dinə baxışları minlərlə həməsrlərinin baxışlarından fərqlənsə də, din əslində onların da həyatından, yaradıcılıqlarından bir qırmızı xətt kimi keçir. Belə ki, Mirzə Kazım bəy hələ gənc yaşlarından xristianlığı qəbul etsə, Mirzə Fətəli Axundov isə "mən bütün dinləri puç və əfsanə hesab edirəm" desə də, əslində bu iki böyük şəxsiyyət bütün ömürləri boyu dinlə, islam dini ilə bağlı olmuş, ən azından bu dini tədqiq etmiş, onun haqqında əsərlər yazmışlar. Sadəcə olaraq, dediyimiz kimi, onların islam dininə baxış bucaqları fərqli olmuş, onlar minlərlə həmvətənləri kimi bu dinə kor-koranə inanmamış, onu təftiş etmiş, ona rasional yanaşmışlar. Bu da onların istər-istəməz bu dinə biganə qalmadıqlarını bir daha sübut edir...Maraqlıdır ki, din, islama həməsrlərindən fərqli münasibət bəsləyən bu iki böyük şəxsiyyətin şəxsi həyatlarından da bir qırmızı xətt kimi keçmişdir. Belə ki, əgər bu iki böyük şəxsiyyətin əsrdaşları olan qələm yoldaşları öz zəmanələrində demək olar ki, ümmətin əksər nümayəndələri kimi başlarını aşağı salıb adi bir müsəlman kimi yaşayaraq bədii yaradıcılıqla da məşğul olub, islamın təbliği ilə məşğul idilərsə, bu iki böyük şəxsiyyət islama bəslədikləri münasibətə görə məsuliyyətlərini həyatları bahasına ödəyirdilər. Məsələn, onlardan biri, Dərbənd Şeyxülislamının oğlu olan, sonralar islam dini haqqında bütün dünyada məşhur olacaq "Bab və babilik" (1865), "Şamil və müridizm" (1859), "Qurani-Kərimdə ahəng" (1859), "İslam tarixi" (1860), "Qurandan bəzi fəsillərin təfsiri haqqında" (1843), "Ortadoksal təriqətlər arasında müsəlman hüquqşünaslığı hərəkatının tərəqqisi haqqında" (1850) və s. kimi əsərlər yazacaq Mirzə Kazım bəydən, atası xristianlığı qəbul etdiyinə görə üz çevirəcək və onu oğulluqdan çıxaracaqdı...

Azərbaycan ədəbiyyatı tarixində komediya janrının, Avropa nəzəri-estetik fikrinə söykənən ədəbi-bədii tənqidin, yeni estetik xüsusiyyətlər daşıyan nəsrin, materialist dünyagörüşə söykənən fəlsəfi düşüncənin əsaslarını qoyan böyük maarifçi Mirzə Fətəli Axundovun isə, deyilənlərə görə, dünyasını dəyişdikdə islama bəslədiyi mənfi münasibət üzündən cənazəsi bir neçə gün yerdə qalacaq, kafir olduğu üçün heç bir din xadimi onun cənazə namazını qılmaq istəməyəcəkdi... Hansı ki, gənc Mirzə Fətəli hələ uşaqlığından əmisi tərəfindən din xadimi olmaq üçün xüsusi olaraq hazırlaşdırılmış və ardıcıl dini təhsil almışdı. "Axund Hacı Ələsgər Fətəlini özü kimi ruhani etmək niyyəti ilə ona mükəmməl dini təhsil vermişdi" (1, 433). Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında Mirzə Fətəli Axundovun özünün qələmə aldığı tərcümeyi-halına əsaslanaraq yazır: "Bir ildən sonra Axund Hacı Ələsgər təlim və tərbiyəmə şüru edib, əvvəl Quranı mənə oxutdurdu, Quranı tamam edəndən sonra yavaş-yavaş fars və ərəb kitablarından başladı mənə dərs verməyi.

Axund Hacı Ələsgər mümtaz bir fazil idi və cəmi ülumi-islamiyyədən – xah farsi olsun, xah ərəbi – kamil ittilaı var idi. Mərhum məni oğulluğa qəbul elədi və xalq arasında "Hacı Ələsgər oğlu" adı ilə məşhur oldum... İkinci atamın muradı bu idi ki, mən ülumi-ədəbiyyəni təhsil edib ruhanilər silkinə daxil olam və mollalıq ilə başımı dolandıram" (3, 421-422). Lakin maraqlıdır ki, bu mükəmməl dini təhsil Mirzə Fətəli Axundova başqa nöqteyi-nəzərdən lazım olmuş və o, bu dini biliklərindən dini təftiş etmək üçün istifadə etmişdir. "M.F.Axundov təfəkkürün varlığa, şüurun təbiətə münasibəti məsələsini tam, ardıcıl materialist mövqedən şərh etmişdir. O, "Kəmalüddövlə məktubları"nda və başqa fəlsəfi əsərlərində idealist fəlsəfəyə, orta əsrlər ərəb – müsəlman ölkələrində geniş intişar tapmış sufizm, işqariyyə və başqa dini cərəyan və təriqətlərə qarşı çıxmış və bir tərəfdən, Şərq fəlsəfəsində təzahürünü tapmış materialist meyllərin, ikinci tərəfdən isə Avropa materialist fəlsəfəsi və təbiətşünaslıq elmlərinin

nailiyyətləri əsasında Azərbaycanda və Yaxın Şərq ölkələrində materialist fəlsəfənin əsas prinsiplərini şərh etmişdir, o, təfəkkürün varlığa, şüurun təbiətə münasibəti məsələsinin dərk və şərhində də XVIII əsr Qərbi Avropa və XIX əsr rus materialist filosofları ilə eyni bir mövqedə durmuşdur. Bir sıra Qərbi Avropa maarifçiləri kimi, M.F.Axundov da dinə münasibətdə tam ateist mövqe tutmuşdur. O, bütün dinləri "puç və əfsanə" saymışdır. Axundov da belə hesab etmişdir ki, Allah və başqa fövqəltəbii qüvvələr haqqında təsəvvürlər insan xəyalının məhsuludur, Allah, zənn ilə süni surətdə yaradılmışdır".

M.F.Axundov bir sıra sivilizasiyalı Qərbi Avropa ölkələrində olduğu kimi dinin dövlətdən ayrı olması, din xadimlərinin hüquqlarının məhdudlaşdırılması, hüquq, məhkəmə, maarif, təhsil işlərinin mülki idarələrə həvalə olunması ideyalarını irəli sürmüşdür. O, dünyəvi, demokratik ölkələrdə olduğu kimi, dinin müasir dövr üçün müəyyən mənəvi, etik əhəmiyyət kəsb edən idealları, qanunları əsasında xalqın mənəvi-əxlaqi sifətlərinin təkmilləşdirilməsi və dini ayinlərin, mərasimlərin, məsələn, kəbin-talaq, ölülərin dəfni, namaz, oruc, pişnamazlıq kimi işlərin ruhaniləri öhdəsində qalmasının tərəfdarı olmuşdur" (1, 521-522).

Lakin XIX əsr ədəbiyyat tariximiz sürprizlərlə doludur. Belə ki, XIX əsrdə yaşayıb-yaradan Mirzə Kazım bəy və Mirzə Fətəli Axundov kimi nəhənglərimiz əgər islam dini ilə yalnız bir alim, tədqiqatçı kimi maraqlanıb, eyni zamanda geniş erudisiyalı bir alim, yazıçı, mütəfəkkir kimi fəaliyyət göstərirdilərsə, artıq XIX əsrin ikinci yarısında Hacı Seyid Əzim Şirvani kimi ruhu ilə islama, irfana tamam bağlı olan şairlərimiz də dünyəvi elmlərə, maarifçiliyə doğru can atırdılar. Beləliklə, Azərbaycan ədəbiyyatının XIX əsrdə yaşayıb-yaradan, öz yaradıcılıqları ilə Şərq ədəbiyyatının, fəlsəfi-dini-ədəbi-estetik fikrinin ideallarına sadiq qalan Seyid Əbülqasim Nəbati və Seyid Həmzə Nigaridən fərqli olaraq Hacı Seyid Əzim Şirvani nə qədər bu ideallara sadiq qalsa da, amma təkcə bu ideaların əsiri olmamış, dövtünün açıq fikirli, mütərəqqi və geniş dünyagörüşlü bir ziyalısı kimi yeni dövrün yeni ruhuna, mühitinə adaptasiya olmağı bacarmış, öz ruhi ilə yeni dövrün səsinə səs verə bilmişdir. Belə ki, bir tərəfdən Seyid Əbülqasim Nəbati və Seyid Həmzə Nigari kimi irfani ideallara söykənərək Şərqin klassik qəzəl ənənələrini davam etdirən və bu istiqamətdə dövrünün ən müqtədir şairi olan Seyid Əzim, digər tərəfdənSeyid Əbülqasim Nəbati və Seyid Həmzə Nigaridən fərqli olaraq "Əkinçı" qəzeti ilə əməkdaşlıq edir, rus dilini öyrənir, bu dili tədris edir, kəskin satiralar yazır, dünyəvi məktəb açır, maarifçiliklə məşğul olurdu. Məsələn, "Azərbaycan ədəbiyyatı tarixi"nin dördüncü cildində yazılır: "Seyid Əzimin açdığı məktəb öz tipinə görə müəllim məktəbi sayılırdı. Üçsinifli şəhər məktəbi üçün şagird hazırlayan bu məktəbdə uşaqların dünyəvi biliklərə yiyələnməsinə xüsusi əhəmiyyət verilir, onlara hesab, tarix, coğrafiya fənləri ilə yanaşı Azərbaycan, fars və rus dilləri də öyrədilirdi. 1887-ci ildə Şamaxıda Seyid Əzimlə görüşüb, onun tədris işlərilə tanış olan Minqreliya orta məktəbinin müəllimi Aleksandr Zaxarov 1890-cı ildə çap etdirdiyi bir məqaləsində S.Ə.Şirvaninin məktəbi barədə məlumat verib yazırdı: "Hacı S.Ə. 18 ildir ki, məktəbi idarə edir. Dağıstanda təhsil almışdır, fars və ərəb dillərini və bir neçə Dağıstan ləhcəsini bilir. O, birinci dərəcəli şair kimi tanınmaqdadır... Onun məktəbində 33 şagird oxuyur; onlardan 12 nəfəri həftədə - 15, 9 nəfəri isə 25 qəpik verir ki, cəmisi 6 manat 60 qəpik toplanır... Hacı S.Ə. rus dilində oxuyub-yazmağı bacarır. Rus dilində çətin danışır, lakin yaxşı başa düşür, hətta rus ədəbiyyatı ilə maraqlanır. Puşkindən bir neçə şeir fars dilinə çevirmişdir. Onun məktəbində oxuyanlara rus dili də təlim edilir" (1, 545). Halbuki, o da dövrünün bir çox ziyalısı kimi ilk növbədə bir din xadimi olmaq üçün yetişdirilmiş, dərin dini savad almış, hətta bu məqsədlə Nəcəf, Kərbəla, Şam kimi Şərqin dini mərkəzlərində bir neçə il ardıcıl ali dini təhsil alaraq, ali ruhani din xadimi kimi vətəninə dönmüşdü. Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında Seyid Əzimdən danışarkən yazır: "Mərhum Hacı Seyid

Əzim Şamda təhsili-ülum etdikdən sonra öz vətəninə müraciət edib, bir müddətdən sonra Kəbəni ziyarət qəsdi ilə Məkkəyə getmişdir və bu ziyarətə azim olduqda Mədinədən gedib cəddi Məhəmmədəl-Mustafanın rövzəsində bədahətən bir qəsidə oxumuşdur. Qəsidənin eyni-mətləi budur:

Fəda bu astananın xakinə can, ya Rəsulullah-
Ki, əhli-dərdədir bu dərdə dərman, ya Rəsullulah!

Peyğəmbərin mərqədi-şərifini ziyarət edib, oradan canibi-Məkkəyə rəvan olmuşdur və Məkkeyi-mükərrəmədə hərəmi-şərifin qara örtüyünü gördükdə yenə bədahətən bir qəsideyi-qərra söyləmişdir ki, onun da mətləi budur:

Nədəndir bilmirəm, yaran, edib rəxtin qəra Kəbə,
Tutubdur hansı şahi-dəhrpərvər çün əza Kəbə?" ( 4, 32)

Beləliklə, artıq gördüyümüz kimi, XIX əsrdə din istər Avropa tipli və istərsə də Şərq tipli ziyalılarımızın, şairlərimizin, yazıçılarımızın həyatından, yaradıcılıqlarından, məfkurələrindən, əqidələrindən bir qırmızı xətt kimi keçir və onların cəmiyyətdəki yerlərinin müəyyən olunmasında mühüm rol oynayırdı.

**Məqalənin aktuallığı.** Məqalədə XIX əsr Azərbaycan maarifçi ədiblərin yaradıcılığında dinə münasibət tədqiq edilir ki, bu mövzunun aktuallığını şərtləndirir. Çünki müəllif məsələyə yeni baxış bucağından yanaşır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, müəllif müəyyən edir ki, maarifçi demokratlar öz həyatlarında bəzən ifrat fanatizmə, dini dünyagörüşün bəzi məsələlərinə bir qədər fərqli ənənədən uzaq münasibət bəsləsələr də əslində din bunların yaradıcılıqlarından da bir qırmızı xətt kimi keçmiş və onlar dinin müxtəlif məsələlərini öz yaradıcılıqlarında araşdırmış, təbliğ etmiş, ona öz münasibətlərini bildirmişlər.

**Məqalənin praktik və tətbiqi əhəmiyyəti.** Məqalədən din tarixinə, o cümlədən XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqatlarda nəzəri qaynaq kimi istifadə etmək olar.

## Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. IV cild, Bakı, 2011.
2. Möhsün Nağısoylu. Abbasqulu Ağa Bakıxanovun "Riyazül-qüds" əsəri. Bakı, 2014.
3. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. I cild. Bakı, 1978.
4. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. II cild. Bakı, 1981.

**Т.А. Гусейнов**

## Религия в жизни и творчестве демократов-просветителей XIX века

## Резюме

В статье исследуется жизнь и творчество таких Азербайджанских писателей и поэтов Мирза Шафи Вазеха, Аббаскули ага Бакиханова, Мирза Казым бека, Мирза Фатали

Ахундова, Сейида Азима Ширвани и т.д. Автор отмечает что, эти просветители-демократы даже несмотря на то, что в своем творчестве относились к фанатизму и религии с иной точки зрения, но религия проходила в их творчестве красной линией. Они исследовали различные проблемы и вопросы религии в своем творчестве и раскрывали свое отношение к этим вопросам.

**T.A. Huseynov**

## Religion in the life and activities of the educators-democrats of the nineteenth century

## Summary

In the article it is said about the life and activities of poets, writers and scientists such as Mirza Shafi Vazeh, Abasgulu Aga Bakikhanov, Mirza Kazim bey, Mirza Fatali Akhundov, Seyid Azim Shirvani who lived and created in the first half of $19^{th}$ century. It is shown that although these educated democrats sometimes have different attitudes to the extreme fanaticism and some issues of religious outlook in their lives, in fact, religion had passed as a red line from these beliefs, and they had studied and propagated various issues of religion in their own right and they had expressed their attitude to it.

**Redaksiyaya daxil olub:** 20.12.2019